# FİLMOQRAFİYA



## MUSİQİLƏRİNDƏN İSTİFADƏ OLUNAN FİLMLƏR

***Arşın mal alan*** (1916, tammetrajlı bədii film) – əsərindən istifadə olunub
***Arşın mal alan*** (II) (1945, tammetrajlı bədii film) – bəstəkar, əsərindən istifadə olunub
***Doğma xalqıma*** (1954, tammetrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Bəxtiyar*** (II) (1955, tammetrajlı bədii film) – bəstəsindən istifadə olunub
***O olmasın, bu olsun*** (1956, tammetrajlı bədii film) – əsərindən istifadə olunub, bəstəsindən istifadə olunub
***Arşın mal alan*** (III) (1965, tammetrajlı bədii film) – bəstəkar, əsərindən istifadə olunub
***Nəğməkar torpaq*** (1981, tammetrajlı sənədli film) – bəstəsindən istifadə olunub
***Üzeyir ömrü*** (1981, tammetrajlı bədii film) – bəstələrindən istifadə olunub, əsərlərindən istifadə olunub
***Nizami*** (III) (1982, tammetrajlı bədii film) – bəstəsindən istifadə olunub
***Salam, Zeynəb!*** (1982, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Ata*** (1988, qısametrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Bir cənub kəndində*** (1997, tammetrajlı film-tamaşa) – bəstələrindən istifadə olunub
***Surxay Əsgərov. Sehrli səs. Videoalbom*** (1998, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Əliyevin əli*** (2000, qısametrajlı sənədli televiziya filmi) – bəstəsindən istifadə olunub
***Hər şey olduğu kimi*** (2000, sənədli serial) – bəstələrindən istifadə olunub
***80 kilometr yerin altı ilə*** (2002, qısametrajlı sənədli televiziya filmi) - bəstəsindən istifadə olunub
***Ali məqam*** (2002, qısametrajlı sənədli televiziya filmi) - bəstələrindən istifadə olunub
***Bəxtiyar Vahabzadə*** (II) (2003, tammetrajlı sənədli televiziya filmi) – bəstəsindən istifadə olunub
***Böyük sınaq*** (2003, qısametrajlı sənədli televiziya filmi) – bəstəsindən istifadə olunub
***Ecazkar fleyta*** (2005, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Məşədi İbad 94*** (2005, tammetrajlı bədii film) – əsərindən istifadə olunub, bəstələrindən istifadə olunub
***Unudulmuş qəhrəman*** (2005, qısametrajlı sənədli film) – bəstəsindən istifadə olunub
***Azərbaycan mədəni irsinə qarşı müharibə*** (2006, qısametrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Arzularını çəkən rəssam*** (2007, qısametrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Mənim atam Əlövsət Sadıqov*** (2007, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Azərbaycan motivləri*** (2008, qısametrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Cümhuriyyətə doğru üç addım*** (2008, qısametrajlı sənədli televiziya filmi) – bəstəsindən istifadə olunub
***Elturan Avalov*** (2008, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Azərbaycan rəngkarlığının kraliçası*** (2009, qısametrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Bir ovuc torpaq*** (2009, tammetrajlı film-tamaşa) – bəstəsindən istifadə olunub
***Muğamat var olan yerdə*** (2009, qısametrajlı sənədli televiziya filmi) – bəstəsindən istifadə olunub
***Dilin sehrində yaşayan insan*** (2010, tammetrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Dostuma məktub...*** (II) (2010, qısametrajlı sənədli film) – bəstəsindən istifadə olunub

***Əbədi iftixarımız*** (2010, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Əli Kərim. Gələcəyin şairi*** (2010, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Həyəcan tonqalları*** (2010, qısametrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Ecazkar səsin abidəsi*** (2011, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Heykəllərdə yaşayan ömür*** (2012, qısametrajlı sənədli film) - bəstəsindən istifadə olunub
***Azərbaycan xalçaları*** (III) (2013, sənədli serial) – bəstələrindən istifadə olunub
***Leyli və Məcnun*** (IV) (2014, qısametrajlı bədii film) – əsərindən istifadə olunub, bəstələrindən istifadə olunub
***Bakı əsrlərin aynasında*** (2016, tammetrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Çin olan yuxu*** (2017, qısametrajlı sənədli televiziya filmi) – bəstələrindən istifadə olunub
***Durun gedək evimizə...*** (2015, qısametrajlı sənədli film) – bəstələrindən istifadə olunub
***Cümhuriyyətin 9 şəkli*** (2018, qısametrajlı sənədli film) – bəstələrindən istifadə olunub

**HAQQINDA ÇƏKİLƏN FİLMLƏR**

1. ***Üzeyir Hacıbəyov (1965)***
2. ***Üzeyir Hacıbəyov (1976)***
3. ***Üzeyir ömrü (1981)***
4. ***Üzeyir Hacıbəyov (1986)***
5. ***Əbədi iftixarımız. Üzeyir Hacıbəyov (2010)***
6. ***“Üzeyir Hacıbəyli: bir portretin ştrixləri" – bədii-sənədli film (2022)***

## Üzeyir Hacıbəyov (qısametrajlı sənədli televiziya filmi, 1965)



Film görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun həyat və yaradıcılığına həsr olunmuşdur.

1967-ci ildə zona kinofestivalı - Film musiqi tərtibatına görə Diplom almışdır.

***Film üzərində işləyənlər***

**Rejissor:** *Kərim Kərimov*
**Operator**: *Nəriman Şıxəliyev*
**Janr**: *Sənədli*
***Qısametrajlı***
***Bıoqrafik***
***Musiqili***
**Ölkə:** *Azərbaycan*
**İstehsalçı qurum**: *Bakı Televiziya Studiyası*
**Texniki məlumatlar**: *5 hissə* [1]

[1] Kazımzadə Aydın. Azərbaycan kinosu: filmlərin izahlı kataloqu: 1898-2002, 2 cilddə.- Bakı:Nağıl evi, 2003.- C.2.- S.95-96.

## Üzeyir Hacıbəyov - Azərbaycanfilm (1976)



Filmdə Azərbaycan xalqının görkəmli sənətkarı, milli operamızın banisi, istedadlı bəstəkar, jurnalist, dramaturq, pedaqoq, ictimai xadim Üzeyir Hacıbəyovun həyat və yaradıcılığından, əsərlərinin səhnə təcəssümündən, onun ev muzeyindən söhbət açılır.

***Rejissor:*** *Xamis Muradov*
***Ssenari müəllifi:*** *Kərim Kərimov*
***Operator****: Nerses Setxanyan*
***Səs operatoru****: Şamil Kərimov*

***İstehsalçı****: Azərbaycanfilm*
***Janr****: sənədli – bioqrafik*
**https://www.youtube.com/watch?v=omCZ4eV0PZs&t=2s**

## Üzeyir ömrü - (1981, tammetrajlı bədii film)



Film bəstəkar Üzeyir Hacıbəyovun uşaqlıq və gənclik illərini, onun musiqi aləmində ilk müvəffəqiyyətlər qazandığı, istedadlı yazıçı, jurnalist, ictimai xadim kimi fəaliyyətə başladığı bir dövrü əhatə edir.

Filmdə bəstəkarın ayrı-ayrı əsərləri, o cümlədən "Leyli və Məcnun"u, "Arşın Mal Alan"ı və "Koroğlu"sunun səhnə taleyi də öz əksini tapıb.

Filmdə tarixi-sənədli faktlardan geniş istifadə edilmişdir.

***Rejissor****: Anar Rzayev*
***Ssenari müəllifi****: Anar Rzayev*
***Operato****r: Zaur Məhərrəmov*
***Rəssam****: Rauf İsmayılov*
***Rollarda:***
*Hüseynağa Atakişiyev (Üzeyir Hacıbəyli)*
*Yalçın Əfəndiyev (Üzeyir, uşaqlıqda)*
*Tofiq Mirzəyev (aparıcı)*
*Həmidə Ömərova (Məleykə xanım)*
*Məmməd Məmmədov (Müslüm Maqomayev)*
*Rüstəm Rüstəmzadə (Əbdürəhim bəy Haqverdiyev)*
*Mahirə İsgəndərova (Şövkət Məmmədova)*
*Qədir Rüstəmov (Cabbar Qaryağdıoğlu)*
*Ramiz Quliyev (Qurban Pirimov)*
*Yaşar Nuri (Zülfüqar Hacıbəyov)*
*Əli Zeynalov (Həsən bəy Zərdabi)*

*Mikayıl Mirzəyev (Hüseynqulu Sarabski)*
*Nəcibə Məlikova*

***İstehsalçı:*** *Azərbaycanfilm*

[*https://www.youtube.com/watch?v=Iw-YsQQ3RRA*](https://www.youtube.com/watch?v=Iw-YsQQ3RRA)

## Ömür səhifələri – ( 1986, bioqrafik-sənədli film)




Filmdə bəstəkar Üzeyir Hacıbəyovun ev muzeyində qorunub saxlanılan və nümayiş etdirilən eksponatlar, bəstəkara məxsus şəxsi əşyalar və qiymətli sənədlər öz əksini tapıb. Film Üzeyir Hacıbəyovun Ev- Muzeyinin sifarişi ilə çəkilib.

**Rejissor:** *Zaur Məhərrəmov*
**Ssenari müəllifi**: *Kamil Vəliyev*
**Operator:** *Zaur Məhərrəmov*
*Səs operatoru:Şamil Kərimov*
**İstehsalçı:** Azərbaycanfilm

**Janr:** bioqrafik

[*https://www.youtube.com/watch?v=JA3iVXituQo*](https://www.youtube.com/watch?v=JA3iVXituQo)

## "38 ildən sonra" (Üzeyir Hacıbəyova həsr olunmuş film)




Bir neçə il əvvəl qəfil xəbər ictimaiyyəti heyrətə saldı. Böyük bəstəkar Üzeyir Hacıbəylinin itmiş sayılan əsərləri tapılmışdı. 38 il keçəndən sonra. Bunlar not əlyazmaları, məktublar və sairə idi. Tapıntı Üzeyir irsinin daha dərindən öyrənilməsinə əvəzsiz hədiyyə olmuşdur.

***Ssenari müəllifi***: *Arzu Qazıyeva*
***Rejissor:*** *Rövşən Vaqifoğlu*
**Operator**: *Sahib Səfərov.*

[*https://www.youtube.com/watch?v=qstPRAAoDa0*](https://www.youtube.com/watch?v=qstPRAAoDa0)

## Əbədi iftixarımız – bədii-sənədli film (2010)




Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin istehsalı, dahi bəstəkarımız Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılığından bəhs edən "Əbədi iftixarımız" bədii - sənədli film bəstəkarın 125 illiyi münasibətilə çəkilib. Çəkilişlər Şirvanşahlar saray kompleksində və Ü.Hacıbəylinin ev-muzeyində aparılıb.

### FİLM ÜZƏRİNDƏ İŞLƏYƏNLƏR

***Ssenari müəllifi***: *Sərdar Fərəcov*
***Redaktor:*** *Yaqub Əlioğlu*
***Direktor:*** *Sabir Heybətov*
***Quruluşçu rejissor:*** *Tahirə Hüseynova*
***Ssenari müəllifi***: *Sərdar Fərəcov*
***Montaj:*** *Hüseyn Hüseynov*
***Səs rejissoru***: *Rəşad Əflatunoğlu*

***Səs operatoru:*** *Əliabbas Qasımov*
*Mikayıl Əjdəroğlu*

***Assistentlər:*** *Elşən Rafiqoğlu*
*Cavid Bağırov*

***İnzibatçı:*** *Məlahət Əhmədova*
***Mətni oxudu:*** *Eldəniz Rəsulov*
***Üzeyir bəy rolunda***: *Ramiz Məlik*
***Məlikə xanımı səsləndirdi***: *Şəfəq Əliyeva*

**https://www.youtube.com/watch?v=U4FLx50T_C4**

## “Üzeyir Hacıbəyli: bir portretin ştrixləri" – bədii-sənədli film (2022)



“Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin “Sabah” Yaradıcılıq Studiyasında hazırlanan “Yad et məni” bədii-sənədli filmlər silsiləsindən olan bu filmdə Üzeyir Hacıbəyli ilə bağlı uzun illər gizli qalmış faktlar açıqlanır, onun həyatı ilə bağlı maraqlı məqamlar üzə çıxarılır, bəstəkarın 18 il heç nə qələmə almamasının əsl səbəbləri işıqlandırılır.

Filmin yaradıcı heyəti bu film-tamaşanı Üzeyir Hacıbəylinin 140 illiyi ilə bağlı ərsəyə gətiriləcək iriçaplı bədii filmin başlanğıcı hesab edir. Filmi ərsəyə gətirənlər Üzeyir bəylə bağlı ekran əsərinin ardının olacağını, yeni bir filmin tamaşaçıları gözlədiyini bildiriblər.

***Film-tamaşasının quruluşçu rejissoru:*** *Adil Azay,*

***Ssenari müəllifi:*** *Afaq Vasifqızı,*
***Üzeyir Hacıbəylini canlandıran aktyor**: Ədalət Əbdülsəmədov*

Qeyd edək ki, "Yad et məni" layihəsinin ideya müəllifi Xalq artisti Ramiz Həsənoğludur.

**https://www.youtube.com/watch?v=FN7e-KN1qgU&t=120s**

## ƏSƏRLƏRİ HAQQINDA FİLMLƏR



### "Arşın mal alan" operettası əsasında çəkilmiş filmlər:

Arşın mal alan (film, 1916) — Boris Svetlovun filmi.
Arşın mal alan (film, 1937) — Setraq Vartyanın musiqili filmi.
Arşın mal alan (film, 1945) — Rza Təhmasib və Nikolay Leşşenkonun filmi.
Arşın mal alan (film, 1960) — Səməd Sabahinin filmi.
Arşın mal alan (film, 1965) — Tofiq Tağızadənin filmi.

### Arşın mal alan (film, 1916) — Boris Svetlovun filmi



"Arşın mal alan" filmi ilk dəfə 1916-cı ildə çəkilmişdir.

Film 7 hissədən ibarət idi. O vaxtlar Bakıda fəaliyyət göstərən "Filma" Səhmdar Cəmiyyətinin rejissoru Boris Svetlov çəkilişlərə tanınmış səhnə aktyorlarını - Hüseynqulu Sarabskini (Əsgər), Ələkbər Hüseynzadəni (Sultan bəy), Mirzəağa Əliyevi (Süleyman), Əhməd Ağdamskini (Gülçöhrə), Yunis Nərimanovu (Gülcahan, titrdə belə yazılıb), Aleksandra (Asya) və Yevgeniya (Telli) Olenskaya bacılarını dəvət etmişdi.

Film ilk dəfə 1917-ci il yanvarın 3-də Bakıdakı "Forum" kinoteatrında nümayiş etdirilir. Səssiz olduğuna görə onun təsir gücü az idi. Əsər ekran üçün işlənərkən öz gözəlliyini, təravətini və bədii qiymətini xeyli itirmişdi. Buna görə də, salonda yerləşdirilmiş xalq çalğı alətlərinin müşayiəti ilə operettadan musiqi parçaları çalınır, Cabbar Qaryağdıoğlu və digər xanəndələr ariyalar ifa edirdilər. Tamaşaçılar filmə böyük maraq göstərirdilər. Bununla belə filmin keyfiyyəti Üzeyir bəyi və əsas rollarda çıxış edən aktyorları narazı salmışdı.

O dövrün mətbuatında - "Sovqat" qəzetində belə bir məlumat dərc edilmişdi: "Bakı. "Forum" teatrı tərəfindən müsəlman həyatından alınmış "Arşın mal alan" adlı komediya tamaşaya qoyulmuşdur. Bu komediya qoyulduğu gün Şalyapinə (məşhur rus müğənnisi Fyodor Şalyapinin konsertinə - red.) bilet almaq üçün olan növbə bunun yanında müqayisə ediləcək bir şey deyildi. Bu qədər böyük müvəffəqiyyətə baxmayaraq, əsərin müəllifi ilə bu filmi çəkənlər arasında olan narazılıq üstə film ekrandan götürüldü. Bizə verilən xəbərlərə görə, bu film yenidən çəkiləcəkdir".

Buna baxmayaraq, film sonradan bütün Qafqazda nümayiş etdirilmiş, tamaşaçılar tərəfindən maraqla qarşılanmışdı. Və yenidən Bakı tamaşaçılarının mühakiməsinə verilmişdi. Bununla

əlaqədar, “Kaspi” qəzetinin 1917-ci il 20 aprel tarixli sayında xəbər verilmişdi ki, 4 hissədən ibarət “Arşın mal alan” komediyası Bakının Malıy teatrında aprelin 20-dən 22-dək göstəriləcək və filmi Şərq musiqi orkestri müşayiət edəcəkdir. Bu film Ü.Hacıbəylidən gizli surətdə müxtəlif vaxtlarda və müxtəlif şəhərlərdə gah 7, gah da 4 hissədə nümayiş etdirilmişdir.

Bundan xəbər tutan Ü.Hacıbəyli rəsmi dairələrə müraciət edərək, öz müəlliflik hüququ ilə bağlı etirazını bildirdi və müqəssirlərin məsuliyyətə cəlb olunmasını tələb etdi. Məsuliyyətdən yaxa qurtarmaq istəyən sahibkarlar “film yandı” deyib onu Bakıdan çıxartdılar.

Hadisədən bir neçə gün sonra Aşqabadda “Modern” kinoteatrında “Arşın mal alan” filminin göstəriləcəyi yerli qəzetlərdə xəbər verildi. Müəllif xəbər tutmağa macal tapmasın deyə “yalnız bircə gün nümayiş etdirildiyi üçün seans gündüz saat 4-də başlanacaqdır” sözləri də elana əlavə edilmişdi.

Film Aşqabadda bircə gün göstəriləndən sonra Orta Asiyanın başqa yerlərinə aparıldı. Sonralar elə həmin şəraitdə Tiflis, Gəncə və başqa şəhərlərdə göstərildiyini qəzet elanları xəbər verirdi. 1918-ci ildə Üzeyir Hacıbəylinin İrana getdiyini bilən sahibkarlar filmi Bakıda da göstərdilər...[2]

## Arşın mal alan (film, 1937) — Setraq Vartyanın musiqili filmi

1937-ci ildə erməniəsilli ABŞ aktyor və rejissoru Setraq Vartyanın rejissorluğu ilə "Marana Films" şirkəti tərəfindən "Arşın mal alan" müzikl-filmi çəkilib. Filmdə əsas rolları Setraq Vartyan və Luiza Barsamyan canlandırıblar. Film həmin il martın 5-dən etibarən göstərilib. Ermənilər müəlliflik hüququnu pozaraq, titrlərdə Üzeyir bəyin adını çəkməyib, afişada "Şərq əfsanəsinin motivləri əsasında" ifadəsini qeyd ediblər. Film tez bir zamanda İranda, Türkiyədə və b. ölkələrdə göstərilib.

| | |
|---|---|
| Janr | *musiqili film* |
| Rejissor | *Setraq Vartyan* |
| Prodüser | *Setraq Vartyan* |
| Ssenari müəllifi | *Üzeyir Hacıbəyov* |
| Baş rolda | Setraq Vartyan |
| Lüiza Barsamyan | |
| Ruben Stepanyan | |
| Bart Ankin | |
| Setraq Zurabyan | |
| Qayuş Sinko | |
| Vram Sakayan | |
| Maşa Zubaryan | |
| Bəstəkar | *Üzeyir Hacıbəyov* |
| İstehsalçı | *Marana Films* |
| İlk baxış tarixi | *1937* |
| Büdcə | *157.000 փ* |
| Ölkə | *ABŞ* |
| Dil | *erməni dili* |
| Rəng | *ağ-qara* |

[2] Aydın Kazımzadə. “Arşın mal alan”ın ilk ekran variantı //Mədəniyyət.- 2011.- 13 may.- S. 10.

**Arşın mal alan – (1945, tammetrajlı bədii film)**



Bakı… XX əsrin əvvəli. Gənc tacir Əsgər evlənmək fikrinə düşür. Lakin dövrün qayda-larından fərqli olaraq o, qızı toydan öncə görüb sonra evlənmək istəyir. Bəs nə etməli? Bu məsələnin həllində dostu Süleyman onun köməyinə gəlir.

Film kinostudiyanın 1941-ci il planına salınsa da, Böyük Vətən müharibəsinin başlanması ilə çəkilişi təxirə salınır.

Filmin çəkilməsi Stalinin göstərişi ilə həyata keçirildiyindən Mir Cəfər Bağırov çəkilişlərə xüsusi nəzarət edirdi. Filmdə butafordan istifadə edilməyib. Qızıl, bəzək əşyalarından tutmuş bütün ev əşyalarına qədər hər şey təbii və həqiqətən qiymətli əşyalardır. Çəkilişlərdə istifadə olunan qiymətli əşyalar muzeylərdən və xüsusi elanla əhalidən çəkiliş müddətinə götürülmüşdü.

**İstehsalçı:** Bakı kinostudiyası
**İlk baxış tarixi**: 01.10.1945, 16.05.2006 (bərpa edilmiş versiyası), 10.12.2013 (rənglənmiş və bərpa edilmiş versiyası)

**Tamaşaçı sayı**: 16 299 999 nəfər
**Büdcə**: 5 807 000 rubl
**Gəlir:** 5 milyard rubl
**Texniki göstəricilər**: 35 mm, 4:3, a/q, rəngləndirilmiş
**Janr:** komediya, melodram, musiqili

**Mükafatlar:**

1. SSRİ Dövlət Mükafatı - bəstəkar Üzeyir Hacıbəyova (1946, ölümündən sonra)
2. SSRİ Dövlət Mükafatı - rejissor Rza Təhmasibə (1946)
3. SSRİ Dövlət Mükafatı - aktrisa Leyla Bədirbəyliyə (1946)
4. SSRİ Dövlət Mükafatı - aktrisa Münəvvər Kələntərliyə (1946)
5. SSRİ Dövlət Mükafatı - aktyor Rəşid Behbudova (1946)
6. SSRİ Dövlət Mükafatı - aktyor Lütfəli Abdullayevə (1946)
7. SSRİ Dövlət Mükafatı - aktyor Ələkbər Hüseynzadəyə (1946)



**Rejissorlar**: Rza Təhmasib, Nikolay Leşşenko
**Ssenari müəllifi**: Sabit Rəhman
**Operatorlar**: Əlisəttar Atakişiyev, Muxtar Dadaşov
**Rəssam:** Yuri Şves, Ağamehdi Qumriyev
**Geyim rəssamı**: İsmayıl Axundov
**Bəstəkar**: Üzeyir Hacıbəyov
**Rollarda**: *Rəşid Behbudov (Əsgər), Leyla Bədirbəyli (Gülçöhrə), Ələkbər Hüseynzadə (Soltan bəy), İsmayıl Əfəndiyev (Süleyman), Münəvvər Kələntərli (Cahan xala), Lütfəli Abdullayev (Vəli), Rəhilə Mustafayeva-Məlikova (Asya), Fatma Mehrəliyeva (Telli), Mirzağa Əliyev (baqqal Məşədi İbad), Qafar Həqqi (aşbaz), Əliağa Ağayev (nökər), Hacıməmməd Qafqazlı (səyyar satıcı)*

Leyla Bədirbəyli Gülçöhrə roluna 50 qızın içərisindən seçilmişdi.

Ələkbər Hüseynzadə filmdən əvvəl 600 dəfə səhnədə Soltan bəy obrazına həyat vermişdi.

Rza Təhmasib: "Müharibənin ağır illərində biz filmi Moskvaya təhvil verməyə aparmışdıq. Moskvada vəziyyət çox ağır idi. Filmi qəbul edən komissiyanın bəzi üzvləri bizi soyuq qarşıladılar. Baxışdan sonra mübahisə qızışdı. Bizi hətta məzəmmət edənlər də oldu. Açıqca deyirdilər ki, "bu vurha-vurda "Arşın mal alan" yeridir". Baxışdan iki gün sonra film Moskvanın iki kinoteatrında ekrana buraxıldı. 3 gün sonra isə 18 kinoteatrdan "Arşın mal alan"ın sədası eşidildi."

Təkcə 1945-ci ildə bu filmə 16,27 milyon tamaşaçı baxmışdı. "Arşın mal alan" prokatda 8-ci yer tutub ("Domaşnyaya Sinemateka" bədii filmlərin kataloqu. Moskva, 1996).

Film nəinki Azərbaycan, həm də sovet kinosuna dünya şöhrəti qazandırıb, 86 dilə tərcümə edilərək 136 ölkədə nümayiş etdirilib.

Rusiya kinosunun 100 illiyi münasibətilə aparılan sosioloji tədqiqatlar nəticəsində sovet kinosunun inkişafına əhəmiyyətli təsir göstərmiş sovet filmlərinin və sovet ekranında uzun illər nümayiş etdirilmiş xarici ölkə filmlərinin arasından "100 sevimli film" seçilmişdi. Həmin filmlər üç hissəyə - Qızıl, Gümüş və Bürünc siyahılara ayrılmışdı. 1945-ci ildə istehsal olunmuş "Arşın mal alan" kinokomediyası məşhur kino mütəxəssislərinin yekdil rəyi ilə "Qızıl siyahı"ya daxil edilmişdi ("Oqonyok" jurnalı, N2, Yanvar, 1996).

1946-cı ildə bəstəkar Üzeyir Hacıbəyova, rejissor Rza Təhmasibə, aktrisa Leyla Bədirbəyliyə, aktrisa Münəvvər Kələntərliyə, aktyor Rəşid Behbudova, aktyor Lütfəli Abdullayevə və aktyor Ələkbər Hüseynzadəyə "Stalin" mükafatı (2-ci dərəcə) verilib.

Film 2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü, AtaHoldingin dəstəyi və "Peachline" şirkətinin təkilatçılığı ilə film "G-Ray" (ABŞ) və "Global 3 Pictures" şirkətləri tərəfindən bərpa olundu və rəngləndi. Filmin rəngləndirilmiş yeni versiyasının ilk baxışı 10 dekabr 2013-cü il tarixində Heydər Əliyev Mərkəzində reallaşıb.

Film Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında çəkilib.

Film Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə Azərbaycan Respublikasında dövlət varidatı elan edilən filmlərin siyahısına daxil edilib

## Arşın mal alan - Azərbaycanfilm (1965)

**Rejissor:** *Tofiq Tağızadə*
**Ssenari müəllifləri**: *Muxtar Dadaşov, Tofiq Tağızadə*
**Operator:** *İlya Minkovetski*
**Rəssam:** *Elbəy Rzaquliyev*
**Bəstəkar:** *Üzeyir Hacıbəyov*

**Rollarda:** Həsən Məmmədov (Əsgər), *Leyla Şıxlinskaya (Gülçöhrə),* *Ağadadaş Qurbanov (Soltan bəy),* *Nəcibə Məlikova (Cahan xala),*



*Hacımurad Yagizarov (Süleyman),*

*Xuraman Hacıyeva (Asya)*

**İstehsalçı:** Azərbaycanfilm
**İlk baxış tarixi**: 01.02.1966
**Janr:** lirik komediya, musiqili

**Mükafatlar:** I Zaqafqaziya və Ukrayna Respublikaları filmlərinin “Prometey-67” zona kinofestivalı - ən yaxşı musiqili filmə görə Gürcistan SSR Bəstəkarlar İttifaqının mükafatı (1967, Tbilisi / Gürcüstan).

**https://www.youtube.com/watch?v=HRrs3pW_1ok&t=330s**

## "O olmasın, bu olsun" operettası əsasında çəkilmiş filmlər:

***“O olmasın, bu olsun”* (film, 1919)** — Aleksandr Alekseyeviç Xanjonkov tərəfindən "Yalta" kinostudiyasında ekranlaşdırılmışdır.

**"*O olmasın, bu olsun*", baş qəhrəmanın adını alan "*Məşədi İbad*" (film, 1953)** — Azərbaycan əsilli İran rejissoru olan Səməd Sabahi tərəfindən çəkilmişdir.

**"*O olmasın, bu olsun*" (film, 1956)** — "Bakı" kinostudiyası tərəfindən çəkilmişdir.

**2005-ci ildə "*Planet Parni iz Baku*" kinostudiyası "*Məşədi İbad 94*"** kinokomediyasını çəkmişdir. Kinofilm operettanın məzmunu əsasında çəkilmişdir, eyni mövzudan bəhs edir, ancaq hadisələr 1994-cü ildə cərəyan edir.

---

## O olmasın, bu olsun - (1956, tammetrajlı bədii film)



“O olmasın, bu olsun” filmi "Bakı" kinostudiyası tərəfindən çəkilmişdir. Bəstəkar Üzeyir Hacıbəyovun eyniadlı operettası əsasında ekranlaşdırılmışdır.

***Filmin rejissoru*** - *Hüseyn Seyidzadə,*
***Ssenari müəllifi*** - *Sabit Rəhman.*
**Operator:** *Əlisəttar Atakişiyev*
**Rəssamlar:** *Cəbrayıl Əzimov, Nadir Zeynalov*

***Filmdə :***

***Əliağa Ağayev (Məşədi İbad),***
***Arif Mirzəquliyev (Sərvər),***
***Tamara Gözəlova (Gülnaz),***
***Ağasadıq Gəraybəyli (Rüstəm bəy),***
***Barat Şəkinskaya (Sənəm),***
***İsmayıl Əfəndiyev (Həsənqulu bəy),***

***Mustafa Mərdanov (Həsən bəy),***
***İsmayıl Osmanlı (Rza bəy),***
***Möhsün Sənani (Qoçu Əsgər),***
***Lütfəli Abdullayev (Balaoğlan)***
***Əhməd Əhmədov (Hambal) kimi aktyorlar rol almışdır.***

Filmdə hadisələr Bakı şəhərində, XX əsrin əvvəllərində cərəyan edir. Demək olar ki, bütün var-dövlətini qumara uduzan və müflisləşən Rüstəm bəy qızını 50 yaşında olan tacir Məşədi İbada ərə vermək istəyir, lakin bəyin qızı gənc, kasıb bir studentə aşiqdir. Buna baxmayaraq, dövrün mentalitetinə uyğun olaraq, o, atasının qərarına qarşı çıxmır. Bu problem student və onun dostları tərəfindən həll olunur, nəticədə Məşədi İbad bəyin qulluqçusu ilə evlənir.

Teatr və kino aktyotlarına əlavə olaraq, Azərbaycanın görkəmli musiqiçiləri də filmdə rol alıblar. Rüstəm bəyin evində keçirilən şadyanalıqda xanəndə triosu endash Xan Şuşinski (dəf), Tələt Bakıxanov (kamança) və Bəhram Mansurov (tar) "Segah" muğamını ifa edirlər. Gülnazın toyuna hazırlıq səhnəsində Azərbaycan SSR-in xalq artisti (1959-cu ildən) Əminə Dilbazi "Qıtqılıda" mahnısına rəqs edir.

Filmin premyerası 27 yanvar 1958-ci ildə SSRİ-nin respublikalarından olan RSFSR-nin paytaxtı Moskva şəhərində keçirilmişdir. Bu, Üzeyir Hacıbəyovun operettaları əsasında çəkilmiş üçüncü sovet filmi olmuşdur. Bundan əvvəl "Arşın mal alan" operettasının iki versiyası SSRİ-də ekranlaşdırılmışdır. Əlavə olaraq, 1937-ci ildə ABŞ-də ermənilər tərəfindən "Arşın mal alan" filminin erməni dilində adaptasiya çəkilmişdir. "O olmasın, bu olsun" filmi böyük müvəffəqiyyət və auditoriya əldə etmişdir. Film 1958-ci ildə Daşkənd şəhərində keçirilən Asiya və Afrika ölkələri beynəlxalq kinofestivalında çox təqdir edilmişdir. Film SSRİ-dən xaricdə də uğur qazanmışdır. Xariclə mədəni əlaqələr üzrə ümumittifaq cəmiyyətin sədri Aleksandr Davıdov Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri və filmin rejissoru Hüseyn Seyidzadəyə göndərdiyi məktubda yazmışdır: "O olmasın, bu olsun filmi İran, İraq, Yuqoslaviya, Yaponiya, Avstriya, ABŞ, İsveçrə və Macarıstan daxil olmaqla 40 ölkədə satışa çıxarılmışdır". Film sonralar daha 10 ölkədə satışa çıxarılmışdır.

1910-cu ildə Bakıda cərəyan edən hadisələrdə iki gəncin - Sərvər və Gülnazın ülvi məhəbbətindən, məhəbbətin pula, cəhalətə və feodal qalıqlarına qalib gəlməsindən bəhs olunur. Əsas qəhrəmanlarla yanaşı filmdə Rüstəm bəyin bir yığın dost-tanışları: tacirlər, alverçilər, qoçular, mürtəce, satqın jurnalistlər də öz əksini tapır.

Film ilk rəngli bədii Azərbaycan filmidir.

***İstehsalçı:*** *Bakı kinostudiyası*
***İlk baxış tarixi:*** *04.06.1957*
***Janr:*** *musiqili komediya*

**https://www.youtube.com/watch?v=mZTbGUGk7Rc&t=815s**